# Heydər Əliyev Müstəqil Azərbaycanın memarıdır

(Əvvəli 4-cü səhifədə).

Heydər Əliyev bütövlükdə Azərbaycan ziyalılarının əsas ümidgahı idi. Heydər Əliyev daim ziyalılarla görüşmüş, fikir mübadiləsi aparmış, məsləhətlər vermişdir. O, bu fikirdə idi ki, baş verən ictimai-siyasi proseslərə ziyalılar seyrçi münasibət bəsləməməli, hadisələri və kütlələri öz arxasınca aparmağı bacarmalıdırlar.

Bir zamanlar xalqın əmin-amanlığına, dinc həyatına qənim kəsilmiş, Azərbaycanı bölüşdürməyə hazır olan xəyanətkar qüvvələrin tez-tez dövlət çevrilişi cəhdinə əl atmasına, ölkədə diktatura rejimi yaratmağa çalışan qanunsuz silahlı dəstələrin fəaliyyətinə qısa müddətdə son qoyuldu, vətəndaşların dinc yaşayışı təmin olundu. On minlərlə soydaşımızın həyatını məhv etmiş qanlı müharibədə atəşkəsə nail olundu.



Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bu illər ərzində Azərbaycan beynəlxalq aləmdə də özünə layiq mövqe qazandı. Ümummilli liderin ardıcıl, düşünülmüş xarici siyasəti Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmağa can atan, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imici qazandırdı. Burada ilk növbədə erməni təcavüzü ilə əlaqədar dünya ictimaiyyətinin nəzərində Azərbaycana münasibətdə süni yolla yaradılmış mənfi təcavüzlərin alt-üst edilməsini qeyd etmək yerinə düşər. Məhz ümummilli liderin yeritdiyi ölçülü-biçili xarici siyasət, diplomatik səylər nəticəsində nəhayət dünya birliyi kimin haqlı, kimin haqsız olduğunu dərk etdi.

Ölkəmizlə dünya dövlətləri arasında sıx iqtisadi əlaqələr yaradılmış, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına geniş imkan açılmışdır.

Bu gün Azərbaycan dünya birliyinə inteqrasiya yolunda inamla addımlayır. Avropa ailəsinin tamhüquqlu üzvü seçilən ölkəmiz üçün bu yol asan və hamar olmamışdır.

Avropa Şurası kimi nüfuzlu quruma üzvlük hər şeydən əvvəl cəmiyyətimizdə dövlət quruculuğu istiqamətində köklü dəyişikliklərin baş verdiyinə və bu dəyişiklərin hansısa kampaniya deyil, sistemli islahatlar xarakteri daşıdığına dəlalət edir. Hələ 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya aktını qəbul edib milli suverliyini bərpa edən Azərbaycan müasir, demokratik cəmiyyət yaratmaq niyyətini bəyan etdi. Azərbaycan cəmiyyətində hüquqi dövlət quruculuğu sahəsində ilk mühüm addım 1995-ci ildə müstəqil dövlətin Konstitusiyasının qəbul edilməsi oldu. Əsas Qanun respublikanın gələcək inkişaf yollarını müəyyən etdi.

Cəmiyyət həyatındakı radikal dəyişikliklərlə bərabər insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində də Azərbaycan Respublikası qısa müddətdə misilsiz nailiyyətlər əldə etmişdir. Qəbul edilmiş qanunların real həyatda tətbiqi sahəsində ölkəmizdə söz və mətbuat, dini etiqad azadlığı, sərbəst toplaşmaq hüququ, siyasi plüralizm təmin olunmuşdur. Bu gün Azərbaycanda azad mətbuat mövcuddur.

Bir sözlə, respublikamızın bu günkü səviyyəyə çıxması, nüfuzlu dövlətlər tərəfindən tanınması xalqımızın böyük şəxsiyyəti ümummilli liderin dərin zəkasının uzaqgörənliyinin parlaq təzahürüdür. Əminik ki, Azərbaycan bundan sonra da hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlar əldə edəcək, tariximizin parlaq səhifələri yazılacaq, çünki ölkəmiz artıq intensiv inkişaf yolundadır.

**Oqtay MƏMMƏDOV.**

---

# Qeyri-adi və təkrarolunmaz şəxsiyyət

Azərbaycan müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar bir dövlətdir. Heç kəsdən, heç bir dövlətdən asılı olmadan, öz milli maraqlarına əsaslanaraq, qloballaşan dünyanın müsbət təcrübəsindən bəhrələnərək sürətlə inkişaf etməkdədir. Bu inkişaf onu milli gəlirin inkişaf tempinə görə dünyada lider dövlət səviyyəsinə gətirib çıxarmışdır. Bu inkişafın mərkəzində isə insan amili, xalq mənafeyi, xalqın rifah halının daim yüksəldilməsi dayanır.

Artıq 10 ildir ki, Azərbaycan xalqı öz ümummilli lideri Heydər Əliyevi cismən itirmişdir. Lakin bu illər ərzində Heydər Əliyevin mənəvi ruhu xalqın qəlbində yaşamış və əbədi olaraq yaşayacaqdır. Hər il dekabr ayının 12-də—Heydər Əliyevin anım günündə onun əziz xatirəsi qədirbilən xalqı tərəfindən dönə-dönə xatırlanır, təşkilatlarda, ayrı-ayrı kollektivlərdə xatirə gecələri, anım saatları həyat və fəaliyyətinə aid konfranslar və digər tədbirlər həyata keçirilir.

Azərbaycan xalqını, vətənini canından artıq sevən bu şəxsiyyət bütün həyatını ölkəsinin müstəqilliyinin bərpasına, onun qorunub saxlanmasına, uğurlu gələcəyinə həsr etmişdir. Bunların əsasında özünün siyasi konsepsiyasını hazırlamış, bu konsepsiyanı, siyasi kursu Azərbaycan xalqına miras qoyub əbədiyyətə qovuşmuşdur.

Maraqlı cəhət bundadır ki, humanizm, insan amili, xalqın firavan yaşam tərzi Heydər Əliyev siyasi-iqtisadi strategiyasının ana xəttini təşkil edir. İstər ölkənin müstəqilliyinin qorunub saxlanmasında, istər müstəqil, demokratik, hüquqi, dünyəvi və unitar dövlət quruculuğu, istərsə də iqtisadi sahədə həyata keçirilən islahatlar zamanı ulu öndər belə meyarlara əsaslanmış, bu zaman mövcud şərait, milli adət-ənənələr, milli maraqlar da unudulmamışdır.

Ölkə başçısı İlham Əliyev Heydər Əliyev siyasətini Prezident seçildiyi ilk anlardan özünün fəaliyyət proqramı kimi qəbul etdi. Çünki, bu siyasət doğru və düzgün, dünya təcrübəsinə əsaslanan siyasət idi. Əbəs yerə dünyanın tanınmış dövlət xadimləri, görkəmli siyasət karifeyləri tərəfindən XX əsrdə bir çoxlarının qazana bilmədiyi qiyməti yalnız Heydər Əliyev qazanmışdır. Məsələn, vaxtilə ABŞ Prezidenti olan Bill Klinton demişdir: "Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı yox, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir". Bu görkəmli şəxsiyyəti qeyri-adi, təkrarolunmaz, əfsanəvi şəxsiyyət, böyük məktəb, siyasət şahmatının ustası, XX əsrin lideri, siyasət nəhəngi, dünyanın ləlcəvahiri adlandıranlar, belə şəxsiyyətin nadir hallarda yetişdiyini, təkcə Azərbaycana deyil, bütün islam dünyasına və Şərq aləminə məxsus olduğunu söyləyənlər də vardır.

Heydər Əliyev Azərbaycanın nüfuzunun bütün dünyada yüksəldilməsini təmin etməklə təkcə siyasətçi kimi tanındığını deyil, onun tarix, fəlsəfə, ədəbiyyat və dil bilicisi olduğunu söyləyənlər də vardır. Bunlarla yanaşı qeyd etmək lazımdır ki, Heydər Əliyev əlində heç bir mətn və qeyd olmadan saatlarla yerindən tərpənmədən ayaq üstə durub çox məntiqli, dəqiq faktlarla, özü də heç bir təkrara yol vermədən danışardı. Yüksək fiziki və mənəvi keyfiyyətlərə, möhkəm yaddaş və iradəyə malik olan bu şəxsiyyətin nitqində ən görkəmli ekspertlər belə qüsur tapa bilməzdi. Məhz Azərbaycan xalqı daim fəxr edə bilər ki, onun bənzərsiz və təkrarolunmaz yüksək keyfiyyətlərə malik belə bir lideri olmuşdur. Özbəkistanın Prezidenti İslam Kərimov bu baxımdan Azərbaycan xalqına həsəd apararaq demişdir: "Kimin xoşuna gəlsə də, gəlməsə də bu gün dünya Heydər Əliyevi tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyaya yüksəldən qanuni liderdir."

Hazırda qədirbilən Azərbaycan xalqı Heydər Əliyevin varisi, ona mən özüm qədər inanıram-deyə Azərbaycan Prezidenti olmasına etimad göstərdiyi cənab İlham Əliyevin ətrafında sıx birləşərək ölkəni daha uğurlu gələcəyə aparır.

İlham Əliyev ölkə Prezidenti seçildiyi ilk günlərdən Heydər Əliyev siyasətini uğurla davam etdirəcəyini vəd vermiş və bu vədinə halhazıradək sadiq qalır. Bu gün mübaliğəsiz demək olar ki, son 10 ildə Azərbaycanda bütün sahələr üzrə əldə olunan uğurlar məhz Heydər Əliyev siyasətinin bəhrələridir. Eyni zamanda cənab Prezidentin bu siyasəti dönmədən, cəsarətlə, qətiyyətlə, özünün möhkəm iradəsi ilə mövcud şəraitə, duruma uyğun olaraq həyata keçirməsinin nəticəsidir. Bu siyasətin mərkəzində isə xalqın ümumi mənafeyinin, həyat səviyyəsinin yaxşılaşdırılması, hüquq və azadlıqlarının qorunması dayanır. Məhz ona görə də oktyabr ayının 9-da keçirilən prezident seçkilərində Azərbaycan seçiciləri İlham Əliyevə böyük üstünlüklə səs vermişlər.

Cənab İlham Əliyev vaxtilə Qəbələnin gələcək inkişafı barədə Heydər Əliyevin təşəbbüslərini də uğurla həyata keçirməkdədir. Bu istiqamətdə atılan addımlar Qəbələnin simasını başdan-başa dəyişmişdir. İndi Qəbələ beynəlxalq aləmdə tanınmaqdadır. Halbuki Qəbələ 10-15 il bundan əvvəl heç Azərbaycanda bəlli-başlı tanınmırdı. 2013-cü ildə Qəbələ MDB ölkələrinin mədəniyyət mərkəzi seçilmişdir. Burada hər il müxtəlif mövzularda beynəlxalq tədbirlər—elmi konfranslar, simpoziumlar, muğam festivalları, incəsənət sərgiləri keçirilir. Bu tədbirlərdə dünyanın bir sıra alimləri, dövlət xadimləri iştirak edirlər. Qəbələ nəinki MDB məkanında, bütün dünyada tanınan şəhərlərdən birinə çevrilməkdədir. Bu tanışlığın hüdudları ildən-ilə genişlənir.

Hazırda bütün respublikada olduğu kimi Qəbələdə də Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirlər davam edir. Hər bir təşkilatda, hər bir təhsil, mədəniyyət, səhiyyə ocağında unudulmaz dahinin həyat yoluna nəzər salınır, xatirəsi dönə-dönə yad olunur.

**Nadir ATAKİŞİYEV.**